# Dünya azərbaycanlıları birlik və həmrəyliklərini bu dəfə Şuşadan nümayiş etdirirlər

**Azərbaycanın qədim və gözəl şəhəri, Qarabağın baş tacı Şuşa Vətən müharibəsindən sonra özünün yeni, coşqun və mənalı çağlarını yaşayır. Bu şəhər 30 ilə yaxın erməni vandallarının işğalından qurtuluşunun qüruru ilə yaralarını sarıyır, yenidən qurulur, bərpa olunur.**



## Şuşa dirçəlir, yeni növrağına qovuşur...

2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində Şuşanın azad olunması müjdəsini verdi: "Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Şuşanın azad edildiyi gün Prezident İlham Əliyevin sərəncamı ilə tariximizə Zəfər günü kimi yazıldı.

30 ilə yaxın davam edən işğal müddətində Ermənistanın qədim Azərbaycan şəhəri Şuşanı erməniləşdirmək cəhdləri boşa çıxdı. Şuşanın tarixini, mədəniyyətini özününküləşdirə bilməyən erməni vandallarının işğal dövründə bu şəhəri yalnız uçurub-dağıtmağa gücləri yetdi.

Prezident İlham Əliyevin söylədiyi kimi: "Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir". İndi bu qədim, əsrarəngiz şəhərin dirçəliş dövrüdür. Vətən müharibəsində qazandığımız möhtəşəm qələbədən sonra Qarabağda tarixi və mədəni ənənələrimiz bərpa olunur, Şuşa şəhərinin işğalı ilə yarımçıq qalmış ənənəvi tədbirlər də yenidən düzənlənir. Ötən il bu şəhərdə "Xarıbülbül" Musiqi Festivalı, "Vaqif Poeziya Günləri" keçirildi. Milli Məclisin "Şuşa ilinə" töhfəsi olaraq Şuşada parlamentin komitə iclaslarının keçirilməsinə başlanıldı. 2023-cü ildə isə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" olacaq.

Bir sözlə, mədəniyyətimizin mərkəzinə çevrilən Şuşa öz əvvəlki növrağına qovuşur, günü-gündən dirçəlir, yenidən qurulur.

## Birliyin, həmrəyliyin təntənəsi, qürurun və sevincin təcəssümü

Vətən müharibəsinin davam etdiyi günlərdə Azərbaycan xalqı bir arzuda, bir amalda birləşdi. Həmin günlər ölkəmizdə uşaqdan böyüyədək hər kəs həyəcanla uzun illər düşmən işğalında qalan torpaqlarımızı Azərbaycan Ordusunun azad etməsi xəbərini gözləyirdi. Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da bu duyğularla yaşayır, daha da sıx birləşərək fəallıq nümayiş etdirir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırdılar. Dünyanın 30-dan çox ölkəsində Azərbaycan diaspor təşkilatlarının keçirdikləri 200-dək aksiyaya 25 mindən çox soydaşımız, eləcə də dost xalqların nümayəndələri qatıldılar. Vətən müharibəsinin davam etdiyi günlərdə 300-ə yaxın diaspor təşkilatı ayrı-ayrı ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər ünvanladı.

Artıq hər bir azərbaycanlı dünyanın istənilən yerində fəxrlə, başıuca gəzir. Çünki Vətən müharibəsində qazandığımız zəfərlə məğlubiyyətin ağır mənəvi yükündən qurtulmuşuq. Artıq biz qalib xalqıq! Azərbaycan xalqının qəhrəmanlığı, qətiyyəti bütün dünyaya bəllidir. İndi bu qalib xalqın müxtəlif ölkələrdə yaşayan nümayəndələri Şuşada topaşıblar. Azərbaycanın mədəniyyət paytaxtı möhtəşəm bir tədbirə evsahibliyi edir. Dünya Azərbaycanlılarının V Qurultayı bu şəhərdə keçirilir.

Dünya Azərbaycanlılarının V Qurultay iştirakçıları və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları Fəxri xiyabanı, Birinci və İkinci Şəhidlər xiyabanlarını ziyarət etdikdən sonra Şuşa şəhərinə gəliblər. Qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edir.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da, II qurultayı 2006-cı il martın 16-da, III qurultayı 2011-ci il iyulun 5-6-da, IV qurultayı 2016-cı il iyunun 3-4-də keçirilib. Növbəti qurultayın Şuşada düzənlənməsi birliyimizin, həmrəyliyimizin böyük təntənəsi, eyni zamanda 28 illik nisgildən, həsrətdən sonra Şuşaya azad səfər etməyimizin qürurunun və sevincinin təcəssümüdür.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 26 aprel.- S.10.